**“Təsdiq edilmişdir”**

**Azərbaycan Respublikasının**

**Milli Depozit Mərkəzinin**

**Müşahidə Şurasının**

**28 dekabr 2018-ci il tarixli qərarı**

**(MŞ-11-2018 №-li protokol)**

**Sədr ____________ C.Nəzərov**

M/Y

# Nominal saxlayıcı hesablarının açılması və idarə olunması barədə Azərbaycan Respublikası Milli Depozitar Mərkəzinin daxili Qaydaları

## 1. Ümumi müddəalar

1.1. Bu qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsi, “Qiymətli Kağızlar Bazarı haqqında” Azərbaycan Respublikasının Qanunu, “İnvestisiya Fondları haqqında” Azərbaycan Respublikasının Qanunu, qiymətli kağızlar bazarını tənzimləyən digər normativ hüquqi aktlar, Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq normativ hüquqi aktlar və beynəlxalq təcrübəyə müvafiq olaraq hazırlanmışdır.

1.2. Bu qaydalar, MDM-də nominal saxlayıcı hesablarının açılmasını və MDM-in digər təşkilatlarda nominal saxlama üzrə hesablarının açılması münasibətlərini tənzimləyir.

## 2. Anlayışlar

2.1. **Nominal saxlayıcı** - müqavilə əsasında investorun tapşırığı ilə və onun xeyrinə qiymətli kağızlara dair hüquqları həyata keçirən, qiymətli kağız mülkiyyətçilərinin reyestrində qeydə alınmış, qiymətli kağızların mülkiyyətçisi olmayan xarici depozitar və ya xarici investisiya şirkətidir.

2.2. **depo hesabı** – qiymətli kağız mülkiyyətçisinin (investor) və ya nominal saxlayıcının müraciəti əsasında müştəri üçün mərkəzi depozitarda açılmış və özündə müştərinin qiymətli kağızlarına olan hüquqlara dair qeydləri əks etdirən hesab;

2.3. **emitent** – investisiya qiymətli kağızlarının emissiyasını "Qiymətli Kağızlar Bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 2-ci fəsli ilə müəyyən edilmiş qaydada həyata keçirən *hüquqi* şəxs, dövlət (müvafiq qaydada buna səlahiyyətləndirilmiş dövlət orqanı vasitəsilə) və ya bələdiyyə.

2.4. **investor** – qiymətli kağızların mülkiyyətçisi, qiymətli kağızların və ya törəmə maliyyə alətlərinin satıcısı və ya onları almaq təklifini verən şəxs;

2.5. **"nominal depo" hesabı** – nominal saxlayıcının müraciəti əsasında investorun qiymətli kağızlarına və ya törəmə maliyyə alətlərinə xidmətlərin göstərilməsü üzrə açılan hesabdır.

2.6. **Maliyyə bazarlarına nəzarət orqanı** - maliyyə bazarlarında tənzimlənmə və nəzarətin həyata keçirilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum, Maliyyə Bazarlarına Nəzarət Palatası.

2.7. **Mərkəzi depozitar** - depozitar sistemini idarə edən Milli Depozit Mərkəzidir

2.8. **Qiymətli kağız mülkiyyətçilərinin reyestri -** emitent, onun qiymətli kağızları, qiymətli kağız mülkiyyətçiləri və nominal saxlayıcılar barədə məlumat toplusudur.

### 3. MDM-də nominal saxlayıcı hesablarının açılması

3.1. MDM depozitar sistemdə iki halda nominal saxlayıcıya "nominal depo" hesabı açır:

3.1.1. Xarici depozitar tərəfindən müraciət edildikdə;

3.1.2. Xarici investisiya şirkəti tərəfindən müraciət edildikdə.

3.2. Xarici depozitar şirkəti nominal saxlayıcı hesabı açmaq üçün MDM-ə müraciət etdikdə depozitar- uçot sistemində xarici depozitara birbaşa nominal saxlayıcı qismində "nominal depo" hesabı açılır.

3.2.1. Hesabın açılması üçün xarici depozitar olan nominal saxlayıcı tərəfindən aşağıda qeyd olunan sənədlər təqdim olunur.

- Anket (hüquqi şəxslərə dair);
- Xarici depozitarın hüquqi şəxs qismində dövlət qeydiyyatını təsdiq edən sənəd;
- Xarici depozitarın qanuni təmsilçisinin təyin olunması barədə sənəd;
- Xarici depozitarın təsis edilməsi barədə sənəd (nizamnaməsi);

- Xarici depozitarın bank rekvizitləri;
- Xarici depozitarın özünüqiymətləndirmə anketi;
- Xarici depozitarın çirkli pulların yuyulmasına qarşı tədbirlərin görülməsini təsdiq edən sənədlər.

3.2.2. MDM xarici depozitardan 3.2.1. bəndində göstərilmiş sənədlərdən başqa qanunvericiliyin tələblərinə müvafiq olaraq əlavə sənədlər tələb edə bilər.

3.2.3. Təqdim edilən sənədlər əsasında xarici depozitar təşkilatı ilə MDM arasında nominal saxlama barədə müqavilə imzalanır.

3.3 Xarici investisiya şirkəti MDM-ə "nominal depo" hesabının açılması üçün müraciət etdikdə:

3.3.1.Xarici investisiya şirkəti yerli investisiya şirkəti ilə əməkdaşlıq haqqında müvafiq xidmət müqaviləsi bağlayır.

3.3.2.Yerli investisiya şirkəti xarici investisiya şirkəti üçün "nominal depo" hesabı açır.

**4. Nominal saxlayıcı hesabları üzrə əməliyyatların aparılması**

4.1. Xarici depozitar üçün açılmış "nominal depo" hesabı üzrə əməliyyat ardıcıllığı aşağıdakı qaydada aparılır:

4.1.1.Xarici investor Bakı Fond Birjasında (sonrakı mətinlərdə BFB) qiymətli kağızın alışı/satışı üçün BFB-nin ticarət üzvü olan yerli investisiya şirkəti ilə müvafiq xidmət müqaviləsi bağlayır və tapşırıq verir.

4.1.2. Yerli İnvestisiya Şirkəti BFB-də sifariş qoyarkən müştəri qismində MDM-də hesabı olan xarici depozitarın hesabını göstərir.

4.1.3. BFB-də əqd baş tutduqdan sonra əqd üzrə məlumatlar MDM-ə və birja üzvü olan müvafiq investisiya şirkətinə göndərilir.

4.1.4. Yerli investisiya şirkəti əqdin məlumatlarını müştərisi olan xarici investisiya şirkətinə bildirir.

4.1.5. Xarici investisiya şirkəti əqdin məlumatlarını MDM-də nominal hesabı olan xarici depozitara bildirir.

4.2. Xarici investisiya şirkəti üçün açılmış "nominal depo" hesabı üzrə əməliyyat ardıcıllığı:

4.2.1. Xarici investisiya şirkətinin müştərisi alış/satış sifarişi verir.

4.2.2. Sifariş yerli investisiya şirkətinə ötürülür.

4.2.3. BFB-nin üzvü olan yerli investisiya şirkəti xarici investisiya şirkətini müştəri qismində göstərərək BFB-də sifariş qoyur.

4.2.4.BFB-də əqd bağlandıqda MDM-in uçot sistemində xarici investisiya şirkəti yerli investisiya şirkətinin müştərisi kimi qeyd edilərək və daxili qaydalara müvafiq olaraq hesablaşma başa çatdırılır.

4.2.5. Yerli İnvestisiya Şirkəti öz müştərisi xarici İnvestisiya Şirkətini əqdin nəticəsi barədə məlumatlandırır.

## 5. MDM-ə təqdim olunan müqavilənin forması və qeydiyyatın aparılması

5.1. MDM ilə xarici depozitar arasında tərəflərin qarşılıqlı razılığına görə tərtib olunan nominal saxlama müqaviləsində aşağıdakıların qeyd olunması vacibdır:

- Nominal saxlayıcı barədə məlumat (adı, hüquqi qeydiyyat göstəriciləri, ünvanı, səlahiyyətli şəxsin/şəxslərin adları);
- Müqavilənin predmeti;
- Tərəflərin nominal saxlamaya dair hüquq və vəzifələri;
- Əməliyyatların aparılması üsulları, kommunikasiya əlaqələri haqqında məlumat;
- İnvestorların hüquqlarının həyata keçirilməsi qaydası;
- Müqavilənin müddəti və qiymətli kağızların investorlara (müştərilərə) geri qaytarılması şərtləri;

5.2. Tərəflərin yazılı formada təqdim olunan razılıqlarına müvafiq olaraq müqavilə şərtlərində dəyişiklik edilə bilər.

5.3. Nominal saxlayıcı müqaviləsi yazılı formada tərtib olunur, Beynəlxalq Konvensiyaların tələblərinə müvafiq olaraq təsdiqlənir. Müqavilə nominal saxlayıcının qiymətli kağız mülkiyyətçilərinin reyestrində qeydə alınması və qiymətli kağızların nominal saxlayıcının "nominal depo" hesabına saxlanca verilməsi anından qüvvəyə minir (qeyd olunanlar müqavilə şərtlərində öz əksini tapmalıdır).

5.4. Nominal saxlayıcı müqaviləsində müxtəlif növdən olan qiymətli kağızların nominal saxlayıcıya verilməsi nəzərdə tutula bilər.

5.5. Müqavilə müddəti dayandırıldığı halda nominal saxlayıcı müştərinin (investorun) qiymətli kağızlarını qaytarmağa borcludur. Qiymətli kağızların geri qaytarılması aşağıdakı qaydada həyata keçirilir:

5.5.1. Qiymətli kağızlar nominal saxlayıcının “nominal depo” hesabından silinir və müştərinin (investorun) depo hesabına mədaxil edilməklə reyestrdə yenidən qeydiyyat aparılır.

5.5.2. Nominal saxlayıcının “nominal depo” hesabından qiymətli kağızların müştərinin (investorun) depo hesabına ötürülməsi 3 iş günü ərzində təmin edilməlidir.

5.6. Nominal saxlayıcının özünün mülkiyyətində olan, habelə investorun qiymətli kağızlarının nominal saxlayıcıya saxlanca verilməyən hissəsi reyestrdə və depo hesabında adi qayda ilə depozitar sistemdə qeydiyyata alınır və uçotu aparılır.

5.7. Nominal saxlayıcının iki müştərisi arasında olan əqdlərin icrası “nominal depo” hesabının ümumi qalığı üzrə reyestrdə nominal saxlayıcı ilə bağlı dəyişikliyə səbəb olmur.

5.8. Əqdlərin həyata keçirilməsi zamanı tərəflərdən biri nominal saxlayıcının müştərisi olmadığı halda “nominal depo” hesabının ümumi qalığı üzrə reyestrdə nominal saxlayıcı ilə bağlı dəyişikliyin aparılmasına səbəb olur. Bu cür əqdlər üzrə nominal saxlayıcının müştərisinin depo hesabından əməliyyatların aparılması reyestrdə dəyişiklik edildikdən sonra icra olunur.

5.9.Nominal saxlayıcının hesabından müştərinin qiymətli kağızların silinməsi və qiymətli kağızları əldə edən müştəriyə köçürülməsi qiymətli kağız mülkiyyətçisinin məbləği, növü və digər rekvizitləri qeyd olunan yazılı tapşırığı əsasında həyata keçirilir.

5.10. Nominal saxlayıcıya qarşı irəli sürülən tələblər onun nominal saxlancında olan qiymətli kağızlara yönəldilə bilməz.

5.11.Nominal saxlancda olan qiymətli kağızların mülkiyyətçisinə qarşı irəli sürülən tələblər həmin qiymətli kağızların nominal saxlayıcısına yönəldilə bilməz.

## 6. Nominal saxlayıcı ilə mərkəzi depozitar arasında qarşılıqlı münasibətlər

6.1. Nominal saxlayıcının və mərkəzi depozitarın qarşılıqlı münasibətləri tərəflər arasında tərtib olunmuş müqavilə əsasında həyata keçirilir.

6.2. MDM Nominal saxlayıcının müraciəti əsasında ona “nominal depo” hesabından çıxarış təqdim edə bilər.

63. Nominal saxlayıcı MBNP-nin və ya mərkəzi depozitarın tələbi ilə nominal saxlayıcısı olduğu investorların eyniləşdirilməsinə dair məlumatları 5 iş günü ərzində onlara təqdim etməlidir.

6.4. Gəlirdən vergi tutulması qanunvericiliklə nəzərdə tutulmuş qaydada ödəmə mənbəyindən həyata keçirilir. Aparılan əməliyyatlar barədə vergi orqanına vergi

bəyannamələrinin verilməsi nominal saxlayıcının özü və ya onun əməkdaşlıq etdiyi yerli investisiya şirkəti tərəfindən təmin edilir.

6.5. Nominal saxlayıcı tərəfindən investorun qiymətli kağızları üzrə aparılan əməliyyatlara görə MDM-in tarif cədvəli ilə və ya müqavilə şərtləri ilə nəzərdə tutulmuş qaydada xidmət haqqı tutulur.

6.6. Nominal saxlayıcı və mərkəzi depozitar bank rekvizitlərində, hüquqi ünvanlarında, əlaqə vasitələrində baş vermiş dəyişikliklər barədə 3 iş günü ərzində biri digərini məlumatlandırmağa borcludur.

**7. MDM-in xarici depozitarlarda nominal saxlayıcı hesabının açılması**

7.1. MDM üçün xarici depozitarlarda nominal saxlayıcı hesabı qiymətli kağızlar bazarında fəaliyyət göstərən və onlarla bağlı digər təşkilatlar ilə əməkdaşlıq etmək, MBNP-nin qaydalarına müvafiq olaraq xarici kapital bazarlarının alətləri ilə bağlı əməliyyatlar həyata keçirmək və bu sahədə inkişaf etmək məqsədi ilə açılır.

7.2. MDM üçün xarici depozitarlarda nominal saxlıyıcı hesabı MDM-in Müşahidə şurasının qərarı əsasında açılır.

7.3. Nominal saxlama üzrə xarici depozitar tərəfindən tələb olunan sənədlər toplanılır və qarşı tərəfin qaydalarına əsasən MDM-ə nominal saxlayıcı hesabı açılır.

7.4. MDM-in nominal saxlayıcı hesabı açılmış depozitarlarda qiymətli kağızları saxlamaq niyyəti olan yerli investorlar MDM ilə müvafiq müqavilə bağlayır.

7.5. MDM investorların tapşırığı və onların xeyrinə qiymətli kağızlara dair hüquqları bağlanmış müqavilə əsasında həyata keçirir.

7.6. Nominal saxlayıcı hesabında MDM-in müştəriləri olan qiymətli kağız mülkiyyətçiləri arasında əqdlər bağlandıqda, onların nəticələri qiymətli kağız mülkiyyətçilərinin reyestrində əks etdirilmir.

**8. Məlumatların məxfiliyinin qorunması**

8.1. Nominal saxlayıcı və onun investoru kommersiya sirrinə daxil olan məlumatların qanunvericiliyin və tərəflər arasında bağlanmış müqavilənin tələblərinə uyğun olaraq konfidensiallığının qorunub saxlanmasına borcludurlar.

8.2. Mərkəzi depozitar nominal saxlayıcının kommersiya sirri hesab edilən məlumatlarının konfedensiallığının qorunmasına borcludur.

**Nominal saxlayıcı hesabının açılması haqqında**

**Müqavilə**

Bakı şəhəri ________________

Bir tərəfdən, ________________________________(MDM) və digər tərəfdən, _____________________________________________ (Nominal saxlayıcı) aşağıdakılar haqqında müqavilə bağladılar:

## 1. Müqavilənin predmeti

1.1. Bu Müqavilənin predmeti MDM tərəfindən nominal saxlayıcıya "nominal depo" hesabının açılması və bu hesab üzrə müvafiq əməliyyatların aparılmasıdır.

1.2. Nominal saxlayıcı dedikdə, investorun tapşırığı ilə və onun xeyrinə qiymətli kağızlara dair hüquqları həyata keçirən, qiymətli kağız mülkiyyətçilərinin reyestrində qeydə alınmış, qiymətli kağızların mülkiyyətçisi olmayan xarici depozitardır.

## 2. Xidmətlərin göstərilmə qaydası

2.1. Bu Müqavilə əsasında MDM və Nominal saxlayıcı tərəfindən göstərilən xidmətlər qüvvədə olan Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə və MDM-in daxili qaydalarına uyğun olaraq həyata keçirilir.

2.2. MDM nominal depo hesabı üzrə xidmətləri Nominal saxlayıcının müvafiq tapşırıq və sərəncamları əsasında həyata keçirilir.

2.3. Nominal saxlayıcı tərəfindən verilən hər bir tapşırıq investorun (qiymətli kağız mülkiyyətçisinin) Nominal saxlayıcıya verilən göstərişlərinə əsaslanmalıdır.

2.4. Bir nominal saxlayıcının müştəriləri olan qiymətli kağız mülkiyyətçiləri arasında əqdlər bağlandıqda, onların nəticələri qiymətli kağız mülkiyyətçilərinin reyestrində əks etdirilmir.

2.5. Nominal saxlayıcı qiymətli kağızların mülkiyyətçisi kimi çıxış etmir.

## 3. Tərəflərin hüquq və vəzifələri

**3.1. Nominal saxlaıycı:**

3.1.1. Öz fəaliyyətini qüvvədə olan Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə və MDM-in daxili qaydalarına müvafiq olaraq həyata keçirməlidir.

3.1.2. Nominal saxlayıcı hesabı üzrə qiymətli kağız mülkiyyətçirərinin şəxsi hesabları üzrə əməliyyatların uçotunu aparmalıdır.

3.1.3. MDM-in nominal saxlayıcıya göndərdiyi sorğuya əsasən nominal saxlayıcı hesabında saxlanılan qiymətli kağızların investorları (qiymətli kağızların mülkiyyətçiləri) haqqında məlumatı MDM-ə beş iş günü ərzində açıqlamalıdır.

**3.2. MDM:**

3.2.1. Nominal saxlayıcı haqqında məlumatları Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş hallar istisna olmaqla üçüncü şəxslərə verməməlidir.

3.2.2. Nominal saxlayıcı hesabında saxlanılan qiymətli kağızlar üzərində əməliyyatları yalnız nominal saxlayıcının verdiyi tapşırıqlar əsasında yerinə yetirməlidir.

## 4. Əməliyyatların aparılması üsulları

4.1. MDM ilə Nominal saxlayıcı arasında kommunikasiya tərəflər arasında müəyyən edilmiş qaydada bu müqaviləyə əlavə edilən reqlament üzrə aparılır.

4.2. Nominal saxlayıcı öz müştərisinə aparılmış əməliyyatlar barədə məlumatların ötürülməsini Nominal saxlayəcənən daxili qaydalarına müvafiq formada həyata keçirir.

## 5. Tərəflərin məsuliyyət dairəsi

5.1. Tərəflər bu Müqavilənin öhdəliklərinin yerinə yetirilməməsi və ya qeyri-qənaətbəxş yerinə yetirilməsinə görə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericilliyinə uyğun olaraq məsuliyyət daşıyırlar. Məsuliyyətin həcmi, həmçinin zərərin ödənilməsi qaydası və ölçüsü tərəflərin birgə razılığı ilə, razılığa gəlmək mümkün olmadığı halda isə bu Müqavilənin 8-ci maddəsində göstərilmiş qaydada müəyyən olunur.

5.2. MDM Nominal saxlayıcı və investorlar (qiymətli kağız mülkiyyətçiləri) qarşısında aşağıdakılara görə məsuliyyət daşımır:

- Nominal saxlayıcının hərəkətləri nəticəsində investorlara (qiymətli kağız mülkiyyətçilərinə) dəymiş ziyana;
- Nominal saxlayıcı tərəfindən qüvvədə olan Azərbaycan Respublikasının müvafiq qanunvericiliyin tələblərinin pozulmasına.

5.3. Nominal saxlayıcı aşağıdakılara görə məsuliyyət daşıyır:

- investorlar (qiymətli kağız mülkiyyətçiləri) tərəfindən Nominal saxlayıcıya verilən tapşırıq və sərəncamlara uyğunluğuna;
- investorların  tapşırıqlarının icrası və ondan yaranan öhdəliklərin icrasına.

## 6. Fors-major halları

6.1. Tərəflərdən heç biri fors-major hallarının birbaşa təsiri nəticəsində öhdəliklərin yerinə yetirilməməsi və yaxud yerinə yetirilməsinin gecikdirilməsi üçün məsuliyyət daşımır. Fors-major halı təbii fəlakət, müharibə, yanğın, ümumi tətil, kütləvi iğtişaşlar, çıxışlar və digər tərəflərin əvvəlcədən görə bilmədiyi və ya məntiqə uyğun tədbirlərlə qarşısını ala bilmədiyi fövqəladə hadisələrdir.

6.2. Fors-major halları zamanı Tərəflərin müqavilə ilə nəzərdə tutulmuş öhdəliklərinin yerinə yetirilməsi müddəti müvafiq olaraq uzadılır.

6.3. Fors-major halları səbəbindən dəyən zərərin ödənilməsi üçün Tərəflər heç bir məsuliyyət daşımırlar.

6.4. Fors-major halları baş verdikdə tərəflər bir-birini 5 (beş) iş günü ərzində xəbərdar edirlər.

## 7. Hesablaşma qaydası

7.1. Nominal saxlayıcı hesabında saxlanılan qiymətli kağızlar üzrə aparılan əməliyyatlara görə MDM-in tarif cədvəlinə uyğun olaraq xidmət haqlarının MDM-ə ödənilməsini öz üzərinə götürür.

## 8. Müqavilənin müddəti və ona xitam verilməsi qaydası

8.1. Bu Müqavilə rəsmiləşdirildiyi tarixdən qüvvəyə minir.

8.2. Bu Müqavilə 1 (bir) il müddətinə bağlanılır. Müqavilənin müddəti başa çatdıqda tərəflərin yazılı müraciətinə əsasən müqaviləyə xitam verilmədikdə, müqavilə daha bir il müddətinə uzadılır.

8.3. Tərəflərdən birinin tələbi ilə bu Müqaviləyə xitam verilə bilər. Müqaviləyə xitam verilməsini tələb edən tərəf qaşı tərəfə bu haqda müqavilənin xitam verilməsi tarixinə ən geci 30 (otuz) gün qalmış yazılı məlumat verməlidir.

8.4. Bu Müqaviləyə xitam verilməsi haqqında bildiriş MDM-ə təqdim edildikdən sonra həmin müddətədə mövcud olmuş qarşılıqlı münasibətlər üzrə öhdəliklər tam yerinə yetirilənə qədər qüvvədədir.

## 9. Mübahisələrin həlli

9.1. Tərəflər arasında yarana mübahisələrin qarşılıqlı razılaşma əsasında həllində məqbul nəticə əldə edilmədikdə, mübahisələr Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun məhkəmə qaydasında həll edilir.

## 10. Yekun müddəalar

10.1. Bu Müqavilə üzrə Nominal saxlayıcıya qarşı irəli sürülən tələblər onun nominal saxlayıcı kimi saxladığı qiymətli kağızlara yönəldilə bilməz. Nominal saxlayıcıda olan qiymətli kağızların mülkiyyətçilərinə qarşı irəli sürülən tələblər həmin qiymətli kağızların nominal saxlayıcısına yönəldilə bilməz.

10.2. Bu Müqaviləyə əlavə və dəyişikliklər yalnız Tərəflərin qarşılıqlı razılığı əsasında yazılı formada rəsmiləşdirildikdə etibarlı və bu Muqavilənin tərkib hissəsi olaraq hüquqi qüvvəyə malik olacaqdır.

10.3. Tərəflər arasında bu Müqavilə ilə əhatə olunmayan münasibətlər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə tənzimlənəcəkdir.

10.4. Bu Müqavilə hər biri Tərəflərdə saxlanmaqla iki eyni hüquqi qüvvəyə malik nüsxədə tərtib olunur. Hər iki nüsxə səlahiyyətli şəxslər tərəfindən imzalanır və tərəflərin möhürü ilə təsdiq olunur.

## 11. Tərəflərin hüquqi ünvanı və rekvizitləri